# AŞPA Azərbaycanın uğurları ilə barışa bilmir

Biz ermənipərəst və islamofob qüvvələrin əlində oyuncağa çevrilən bu təşkilatın ədalətsiz münasibətinə göz yuma bilmərik. Lakin AŞPA da anlamalıdır ki, ölkəmizə düşmən mövqedə olan bəzi qüvvələr bu təşkilatdan Azərbaycana qarşı vasitə kimi istifadə edirlər. Bu, AŞPA üçün yaxşı heç nə vəd etmir. Vaxtilə quruma üzv olan iki ölkədən birinin, yəni Ermənistanın digərinin - Azərbaycanın ərazisini işğal etməsi faktına görə işğalçını səs hüququndan məhrum etməyən AŞPA bu gün ölkəmizi əsassız ittihamlarla günahlandırır. Açıq-aydın ortadadır ki, bu qurum ikili standartların əsirinə çevrilib. Ölkəmizə qarşı aparılan qərəzli kampaniyaların başında həm də Fransa və Almaniya dayanır: "Bir sıra hallarda bu iki ölkə tandem şəklində çıxış edirlər. Hətta bəzən Fransa elə bu məsələdə olduğu kimi, öz çirkin niyyətlərini Almaniya vasitəsilə reallaşdırmağa çalışır. Çünki başa düşür ki, tarixən həyata keçirdiyi müstəmləkəçilik siyasəti sayəsində Fransa tamamilə gözdən düşüb".

14

# AŞPA Azərbaycanın uğurları ilə barışa bilmir

**"AŞPA-nın Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnun dondurulması ilə bağlı qərarı ölkəmizə qarşı qərəzli mövqedən xəbər verir. AŞPA bu təşəbbüsü irəli sürərkən guya onun 7 fevralda keçiriləcək prezident seçkilərini müşahidə etməyə dəvət edilməməsi, ölkədə "siyasi məhbus"ların olması ilə əsaslandırsa da, əslində, bütün bunlar bəhanədir. Əsas səbəb AŞPA-nın Qarabağın azad olunması, suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpa edilməsi faktı ilə barışa bilməməsidir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, vaxtilə separatçıların Azərbaycan ərazisindən çıxarılmasını əks etdirən qətnamələr yerinə yetirilməyəndə AŞPA susub, ikili standartlardan çıxış edib. Ötən 30 ildə işğalçını dəstəkləyən AŞPA indi də bu riyakarlığını davam etdirir.

AŞPA-nın Azərbaycanın zəfərini, ərazi bütövlüyünü tam bərpa etməsini həzm edə bilmədiyini vurğulayan Arzu Nağıyev hesab edir ki, ümumiyyətlə, Qərb Cənubi Qafqazda daim münaqişə və müharibə olmasında maraqlıdır: "Bundan sonra Azərbaycan Avropa ilə bağlı öz qərarını verəcək. Əgər Avropa dövlətləri bizi enerji təhlükəsizliyinə təhdidin qarşısını alan dövlət kimi qəbul edirlərsə, bunu da düşünməlidirlər. Azərbaycan da adekvat olaraq həmin o dövlətlərə qarşı öz fikrini bildirib, siyasətini yürüdəcək".

Deputat qeyd edib ki, Azərbaycan nümayəndə heyəti yekun qərarı gözləmədən AŞPA-dakı fəaliyyətlərini qeyri-müəyyən müddətə dayandırıb. Bu, təqdirəlayiqdir: "Biz ermənipərəst və islamofob qüvvələrin əlində oyuncağa çevrilən bu təşkilatın ədalətsiz münasibətinə göz yuma bilmərik. Lakin AŞPA da anlamalıdır ki, ölkəmizə düşmən mövqedə olan bəzi qüvvələr bu təşkilatdan Azərbaycana qarşı vasitə kimi istifadə edirlər. Bu, AŞPA üçün yaxşı heç nə vəd etmir. Vaxtilə quruma üzv olan iki ölkədən birinin, yəni Ermənistanın digərinin - Azərbaycanın ərazisini işğal etməsi faktına görə işğalçını səs hüququndan məhrum etməyən AŞPA bu gün ölkəmizi əsassız ittihamlarla günahlandırır. Açıqaydın ortadadır ki, bu qurum ikili standartların əsirinə çevrilib".

Arzu Nağıyevin sözlərinə görə, ölkəmizə qarşı aparılan qərəzli kampaniyaların başında həm də Fransa və Almaniya dayanır: "Bir sıra hallarda bu iki ölkə tandem şəklində çıxış edirlər. Hətta bəzən Fransa elə bu məsələdə olduğu kimi, öz çirkin niyyətlərini Almaniya vasitəsilə reallaşdırmağa çalışır. Çünki başa düşür ki, tarixən həyata keçirdiyi müstəmləkəçilik siyasəti sayəsində Fransa tamamilə gözdən düşüb".

Deputat bildirib ki, Azərbaycan üçün nəinki AŞPA-da səsinin dondurulması, bu qurumun özü belə heç bir əhəmiyyət daşımır: "Uzun illər qurumun ədalətsizliyi ilə üz-üzə qalan dövlətimiz indi AŞPA-dan başqa nə gözləməlidir? AŞPA-nın hazırkı qərarının insan hüquqları ilə heç bir əlaqəsi yoxdur. Sadəcə bu addım təşkilatın öz suverenliyini və ərazi bütövlüyünü bərpa etmiş Azərbaycana qarşı qisas cəhdidir".

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 2 fevral, № 22.- S.1, 14.